# Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Bakı İdarəetmə və Texnologiya Kolleci

# “Rəsm”

fənninin

# PROQRAMI

040319 – “Dizayn”
040723 – “Zərgərlik məmulatları və bəzək əşyalarının hazırlanması”

Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı İdarəetmə və Texnologiya Kollecinin Metodiki şurasının 15 sentyabr 2017-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir.
(Protokol № 1)

**Bakı 2017**

**Tərtib etdi:**

Bakı İdarəetmə və Texnologiya Kollecinin ixtisas müəllimi — İbrahimova Leyla Zakir

**Redaktor:**

Bakı İdarəetmə və Texnologiya Kollecinin ixtisas müəllimi — Məmmədova Ülviyyə İlqar

**Rəy verənlər:**

Bakı İdarəetmə və Texnologiya Kollecinin ixtisas müəllimi — 1.Həsənova Vüsalə Akif

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının müəllimi — 2. Qazıyev Arif Şamil

## İZAHAT VƏRƏQİ

**“Zərgərlik məmulatları və bəzək əşyalarının hazırlanması” ixtisasında fənnin tədrisinə ayrılan saatın miqdarı – 210 saat**

“Rəsm” fənninin proqramı rəssam – zərgər ixtisasına yiyələnmək üçün lazım olan əsas proqramlardan biridir. Bu proqram rəssam – zərgər həyatını bədii cəhətdən təsvir etmək üçün yardımçı spesifik üsuldur. Rəsm üzərində işi dedaktik prinsip ilə qurmaq lazımdır.

Rəsm fənni əsasən praktiki kursdur. Onun teoretik kursu dərsdən öncə müəllimin tələbələrlə apardığı söhbətdən və qısa məruzələrdən ibarətdir.

Bu fənnin əsasını rəsmin naturadan çəkilməsi təşkil edir. Tədris müddətində tələbələr rəsmin kompozisiyasının əsas prinsiplərini, kölgənin cismin üstünə düşməsi prinsipini anlayır, öz texniki imkanlarını artırır, yaddaşla, təsəvvürlə rəsm çəkməyi öyrənirlər. Rəsm fənninin tədrisi zamanı tələbə ilk növbədə molbert arxasında düzgün dayanmağı və əlindəki qələmi düzgün qaydada tutmağı öyrənir. Həmçinin hər bir əşyanın və ya elementin materiallığını ştrix vasitəsi ilə göstərməyi öyrənir. Ən əsası göz yaddaşını və adi göz ilə nisbətin tapılması kimi xüsusiyyətləri inkişaf etdirir. Bütün kurs boyu tələbələrdə bədii və estetik zövqün formalaşmasına imkan yaradılır. Təsviri incəsənətin estetik mənası, dəzgah və dekorativ – tətbiqi incəsənətin növləri və onların məqsədləri öyrənilir. Rəsm təsviri incəsənətin bütün növlərinin əsasıdır. Cizgi və ton rəsmin əsas elementlərindən biridir. Rəsm fənninin əsas vəzifəsi onun  digər tədris fənnləri ilə qarşılıqlı əlaqəsidir.

**“Dizayn” ixtisasında fənnin tədrisinə ayrılan saatın miqdarı – 180 saat**

“Rəsm” fənninin proqramı rəssam – dizayner ixtisasına yiyələnmək üçün lazım olan əsas proqramlardan biridir. Bu proqram rəssam – dizaynerin həyatı bədii təsvir etmək üçün kömək edən spesifik üsuldur. Rəsm üzərində işi dedaktik prinsip ilə qurmaq lazımdır.	Rəsm fənni əsasən praktiki kursdur. Onun nəzəri kursu dərsdən öncə müəllimin tələbələrlə apardığı söhbətdən və qısa məruzələrdən ibarətdir.Fənnin əsasını rəsmin naturadan çəkilməsi təşkil edir. Naturadan rəsm təsviri sənətin tədrisində aparıcı təlim metodudur. Bu fənnin tədrisi hafizənin inkişafına güclü təsir göstərir. Tədris müddətində tələbələr rəsmin kompozisiyasının əsas prinsiplərini, kölgənin cismin üstünə düşməsi prinsipini anlayır, öz texniki imkanlarını artırır, yaddaşla, təsəvvürlə rəsm çəkməyi öyrənir.  Naturadan rəsm ayrı – ayrı əşyaların təsviri ilə yanaşı sadə natürmort, interyer və peyzajların təsvir edilməsini öyrətməyə şərait yaradır.Rəsm fənninin tədrisi zamanı tələbə ilk növbədə molbert arxasında düzgün dayanmağı və əlindəki qələmi düzgün qaydada tutmağı öyrənir. Həmçinin hər bir əşyanın və ya elementin materiallığını ştrix vasitəsi ilə göstərməyi öyrənir. Ən əsası göz yaddaşını və adi göz ilə nisbətin tapılması kimi xüsusiyyətləri inkişaf etdirir.

Bütün kurs boyu tələbələrdə bədii və estetik zövqün formalaşmasına imkan yaradılır, həmçinin təsviri incəsənətin estetik mənası, dəzgah və dekorativ – tətbiqi incəsənətin növləri və onların məqsədləri öyrədilir. Rəsm təsviri incəsənətin bütün növlərinin əsasıdır. Cizgi və ton rəsmin əsas elementlərindən biridir. Rəsm fənninin əsas vəzifəsi digər tədris fənnləri ilə qarşılıqlı əlaqəsidir.

## “ZƏRGƏRLİK MƏMULATLARI VƏ BƏZƏK ƏŞYALARININ HAZIRLANMASI” İXTİSASINDA MÖVZULAR ÜZRƏ SAATLARIN PAYLANMASI

| № | Mövzuların adları | Seminar |
|---|---|---|
| **Bölmə 1. Sadə həndəsi cisimlərdən ibarət rəsmin təsviri.** | | |
| 1.1 | Giriş. Rəsm haqqında ümumi məlumat. | 4 |
| 1.2 | Bir həndəsi cisimdən ibarət olan rəsmin təsviri. | 12 |
| 1.3 | Bir  və iki həndəsi cisimdən ibarət olan rəsmin təsviri. | 12 |
| 1.4 | Bir həndəsi formadan və bir məişət əşyasından ibarət rəsmin təsviri. | 16 |
| 1.5 | Sadə formal məişət əşyalarından və həndəsi formalardan ibarət natürmortun təsviri. | 16 |
| **Bölmə 2. Məişət əşyalarından ibarət rəsmlərin təsviri.** | | |
| 2.1 | Bir və iki məişət əşyalarından ibarət rəsmin təsviri. | 10 |
| 2.2 | Sadə formalı məişət əşyalarından ibarət rəsmin təsviri. | 10 |
| 2.3 | Mürəkkəb formalı məişət əşyalarından ibarət natürmort. | 10 |
| 2.4 | Bir neçə tondan istifadə olunan parça üzərində natürnortun təsviri. | 10 |
| 2.5 | Dəyişik formalardan ibarət olan mürəkkəb natürmortun təsviri. | 10 |
| 2.6 | Mis və saxsı qablardan ibarət natürmortun işlənməsi. | 10 |
| **Bölmə 3. Gips cisimlərdən ibarət rəsmin təsviri.** | | |
| 3.1 | Gips razetkadan ibarət rəsmin təsviri. | 12 |
| 3.2 | Dörd ləçəkli gül ornamenti rəsminin təsviri. | 12 |
| 3.3 | Gips kolonundan ibarət rəsmin təsviri. | 16 |
| 3.4 | Gips ornamentin rəsminin təsviri. | 20 |
| **Bölmə 4. İnsan başının hissələrinin gips surətindən ibarət rəsmin təsviri.** | | |
| 4.1 | Dodağın gips surətindən ibarət rəsmin təsviri. | 6 |
| 4.2 | Gözün gips surətindən ibarət rəsmin təsviri. | 8 |
| 4.3 | Burunun gips surətindən ibarət rəsmin təsviri. | 8 |
| 4.4 | Qulağın gips surətindən ibarət rəsmin təsviri. | 8 |
| **Cəmi: 210 saat** | | |

## MÖVZULAR VƏ ONLARIN İZAHI

### *Bölmə 1. Sadə həndəsi cisimlərdən ibarət rəsmin təsviri.*

***Mövzu 1.1.* Giriş. Rəsm haqqında ümumi məlumat.**

Rəsm fənninin qədim tarixi.İlk rəsmlər,qayaüstü rəsmlər.İntibah dövründə rəssamların işlədikləri illüstrasiyalarla tanlşlıq.Rəsmlərin işlənməsi, müxtəlif texnikalar və ştrixlənmə üsulları ilə tanışlıq.Qrafik üslubla rəsmlərin işlənməsi.

***Mövzu 1.2*. Bir həndəsi cisimdən ibarət olan rəsmin təsviri.**

Həndəsi cismin anlayışı. Prespektiv anlayışı. Üfüq xətti, fəza müstəvi haqda ümumi anlayış. Həndəsi cisimlərin kağız üzərində düzgün yerləşdirilməsi və qurulması. Rəsmin qurulması zamanı natürmortda olan əşyaların bir – birinə olan nisbətlərin düzgün tapılaraq işlənməsi. Ştrix vasitəsi ilə predmetlərin materiallığının göstərilməsi. İşıq və kölgənin verilməsi. Arxa və qabaq planın dəqiqləşdirilməsi. Rəsmin tamamlanması.

***Mövzu 1.3.* Bir və iki həndəsi cisimdən ibarət olan rəsmin təsviri.**

Prespektiv müşahidəçiliyinin əsas prinsipləri və məqsədi. Həndəsi cisimlərin bir – birinə mütənasibliyi. Rəsmin qurulması zamanı natürmortda olan əşyaların bir – birinə olan nisbətlərin düzgün tapılaraq işlənməsi. Ştrix vasitəsi ilə predmetlərin materiallığının göstərilməsi. İşıq və kölgənin verilməsi. Arxa və qabaq planın dəqiqləşdirilməsi. Rəsmin tamamlanması.

***Mövzu 1.4*. Bir həndəsi formadan və bir məişət əşyasından ibarət rəsmin təsviri.**

Həndəsi forma ilə məişət əşyasının bir – birinə nisbətdə olan mütənasibliyinin tapılması. Həndəsi fiqurun əşyaya görə düzgün yerləşdirilməsi və qurulması. Rəsmin ton və işıq mənbəyinin vəziyyətinin əhəmiyyəti. Predmetlərin ştrix istiqamətlərinin göstərilməsi. Ştrix vasitəsi ilə materiallıq xüsusiyyətinin göstərilməsi. Arxa və qabaq planın dəqiqləşdirilməsi. Rəsmin tamamlanması.

***Mövzu 1.5*. Sadə formalı məişət əşyalarından və həndəsi formalardan ibarət natürmortun təsviri.**

Bir neçə sadə formalı məişət əşyası ilə sadə həndəsi cisimlərdən (üçbucaq, kub, prizma və s.) natürmortun qurulması. Ton və işığın köməyi ilə formaların göstərilməsi. Rəsmin qurulması zamanı natürmortda olan əşyaların bir – birinə olan nisbətlərin düzgün tapılaraq

işlənməsi. Ştrix vasitəsi ilə predmetlərin materiallığının göstərilməsi. İşıq və kölgənin verilməsi. Arxa və qabaq planın dəqiqləşdirilməsi. Rəsmin tamamlanması.

***Bölmə 2. Məişət əşyalarından ibarət rəsmlərin təsviri.***

***Mövzu 2.1.*** **Bir və iki məişət əşyalarından ibarət rəsmin təsviri.**

Məişət əşyalarından ibarət natürmortun rəsmi. Rəsmin qurulması zamanı natürmortda olan əşyaların bir – birinə olan nisbətlərin düzgün tapılaraq işlənməsi. Ştrix vasitəsi ilə predmetlərin materiallığının göstərilməsi. Həcm anlayışının rəsmdə göstərilməsi. İşıq və kölgənin verilməsi. Arxa və qabaq planın dəqiqləşdirilməsi. Rəsmin tamamlanması.

***Mövzu 2.2.*** **Sadə formalı məişət əşyalarından ibarət rəsmin təsviri.**

Müstəvi üzərində yerləşən sadə formalı məişət əşyalrından ibarət natürmortun qurulması. Rəsmin qurulması zamanı natürmortda olan əşyaların bir – birinə olan nisbətlərin düzgün tapılaraq işlənməsi. Ştrix vasitəsi ilə predmetlərin materiallığının göstərilməsi. Həcm anlayışının rəsmdə göstərilməsi. İşıq və kölgənin verilməsi. Arxa və qabaq planın dəqiqləşdirilməsi. Rəsmin tamamlanması.

***Mövzu 2.3.*** **Mürəkkəb formalı məişət əşyalarından ibarət natürmort.**

Formaca mürəkkəb quruluşa malik olan məişət əşyalarından istifadə etməklə natürmortun qurulması. Rəsmin qurulması zamanı natürmortda olan əşyaların bir – birinə olan nisbətlərin düzgün tapılaraq işlənməsi. Ştrix vasitəsi ilə predmetlərin materiallığının göstərilməsi. Həcm anlayışının rəsmdə göstərilməsi. İşıq və kölgənin verilməsi. Arxa və qabaq planın dəqiqləşdirilməsi. Rəsmin tamamlanması.

***Mövzu 2.4.*** **Bir neçə tondan istifadə olunan parça üzərində natürmortun təsviri.**

Qrafit qələmlə bir neçə parçanın fonunda iki – üç məişət əşyalarından ibarət natürmort rəsminin yerinə yetirilməsi. Rəsmin qurulması zamanı natürmortda olan əşyaların bir – birinə olan nisbətlərin düzgün tapılaraq işlənməsi. Ştrix vasitəsi ilə predmetlərin materiallığının göstərilməsi. Həcm anlayışının rəsmdə göstərilməsi. İşıq və kölgənin verilməsi. Arxa və qabaq planın dəqiqləşdirilməsi. Rəsmin tamamlanması.

***Mövzu 2.5.*** **Dəyişik formalardan ibarət olan mürəkkəb natürmortun təsviri.**

Natürmortun əşyalarının kompozisiya baxımından yerləşdirilməsinin analizi. Dəyişik formalardan ibarət mürəkkəb natürmortun rəsminin kompozisiya variantlarının seçilməsi və

kağız üzərində təsvirinin müəyyən edilməsi. Rəsmin qurulması zamanı natürmortda olan əşyaların bir – birinə olan nisbətlərin düzgün tapılaraq işlənməsi. Ştrix vasitəsi ilə predmetlərin materiallığının göstərilməsi. Həcm anlayışının rəsmdə göstərilməsi. İşıq və kölgənin verilməsi. Arxa və qabaq planın dəqiqləşdirilməsi. Rəsmin tamamlanması.

***Mövzu 2.6.*** **Mis və saxsı qablardan ibarət natürmortun işlənməsi.**

Natürmortun qurulması zamanı qabların həcminin və parçanın rənginin kompozisiya baxımından uyğunluğuna xüsusi diqqətinyetirilməsi. Rəsmin qurulması zamanı natürmortda olan əşyaların bir – birinə olan nisbətlərin düzgün tapılaraq işlənməsi. Ştrix vasitəsi ilə predmetlərin materiallığının göstərilməsi. Həcm anlayışının rəsmdə göstərilməsi. İşıq və kölgənin verilməsi. Arxa və qabaq planın dəqiqləşdirilməsi. Rəsmin tamamlanması.

***Bölmə 3. Gips cisimlərdən ibarət rəsmin təsviri.***

***Mövzu 3.1.*** **Gips razetkadan ibarət rəsmin təsviri.**

Ləçəkli razetkanın təsviri. Razetkanın rəsminin dəqiq qurulması, ştrix vasitəsi ilə işıq – kölgənin və materiallığın göstərilməsi.Həcm anlayışının rəsmdə göstərilməsi. İşıq və kölgənin verilməsi. Arxa və qabaq planın dəqiqləşdirilməsi. Rəsmin tamamlanması.

***Mövzu 3.2.*** **Dörd ləçəkli gül ornamenti rəsminin təsviri.**

Ornamentin plastik xüsusiyyətlərini və həcmin təsvirinin öyrənilməsi. Ornamentin simmetriyasına, prespektiv qurulmasına tam riayət etməli. Rəsmin həlli konstruktiv olmalı. Ştrix vasitəsilə işıq – kölgəsi göstərilməli. Materiallıq xüsusiyyətinə önəm verilməli. Rəsmin tamamlanması.

***Mövzu 3.3.*** **Gips kolonundan ibarət rəsmin təsviri.**

Klassik gips cismin naturadan rəsmi. Gips cismin konstruktiv həlli. Həcmin ştrix vasitəsilə göstərilməsi. İşıq – kölgənin verilməsi ilə cismin fakturasının göstərilməsi. Rəsmin tamamlanması.

***Mövzu 3.4.*** **Gips ornamentin rəsminin təsviri.**

Gips ornamentin kağız üzərində düzgün yerləşdirilməsi çox vacib şərtdir. İşıq – kölgəsini verməklə tonun alınması və ornamentin qabarıqlığının, fakturasının və həcminin tam bildirilməsi.Rəsmin tamamlanması.

***Bölmə 4. İnsan başının hissələrinin gips surətindən ibarət rəsmin təsviri.***

***Mövzu 4.1.*** **Dodağın gips surətindən ibarət rəsmin təsviri.**

İnsan başının hissələrinin təsvirinin öyrənilməsi. Müstəvi üzərində qoyulmuş gips elementin öyrənilməsi tələbə üçün çox vacibdir. Kağız üzərində elementi düzgün yerləşdirmək və sonra onun düzgün qurulmasının öyrənilməsi. Dodağın konstruktiv qurulması qanunlarının rəsmdə tətbiqi.

***Mövzu 4.2.*** **Gözün gips surətindən ibarət rəsmin təsviri.**

Elementi çəkərkən rəsmdə ön və arxa planı qeyd etmək. Gözün konstruktiv qurulması qanunlarının rəsmdə tətbiqi. Proporsiyalarını düzgün tapmaq. Elementin gips olduğunu, yəni fakturasını və materiallığını göstərilməsi.

***Mövzu 4.3.*** **Burunun gips surətindən ibarət rəsmin təsviri.**

Kağız üzərində gips elementi proporsiyalarına uyğun yerləşdirmək və qurmaq. Ştrixləmə üsulu ilə elementin qabarıqlığını və onun gips materialından olduğunu göstərmək. Rəsmin tamamlanması.

***Mövzu 4.4*.** **Qulağın gips surətindən ibarət rəsmin təsviri.**

Kağız üzərində düzgün yerləşdirmək, elementin proporsiyalarını bir – birinə mütənasibliyini tam vermək. Elementin konstruktiv qurulması. İşıq və kölgənin köməyi ilə formaların qabarıqlığını və həcminin tam verilməsi rəsmdə ən mühim və vacib olan məsələdir. Rəsmin tamamlanması.

.

## “DİZAYN” İXTİSASINDA MÖVZULAR ÜZRƏ SAATLARIN PAYLANMASI

| № | Mövzuların adları | Seminar |
|---|---|---|
| **Bölmə 1. Həndəsi fiqurlardan ibarət rəsmin təsviri** | | |
| 1.1 | Giriş. Rəsm haqqında ümumi məlumat | 2 |
| 1.2 | Sadə həndəsi fiqurlardan ibarət olan rəsmin təsviri | 10 |
| 1.3 | Drapirovka rəsminin işlənməsi | 8 |
| 1.4 | Həndəsi formadan və məişət əşyasından ibarət rəsmin təsviri | 10 |
| **Bölmə 2. Məişət əşyalarından ibarət rəsmlərin təsviri** | | |
| 2.1 | Bir və iki məişət əşyalarından ibarət rəsmin təsviri | 12 |
| 2.2 | Mürəkkəb formalı məişət əşyalarından ibarət natürmort | 14 |
| 2.3 | Kontrast formalı məişət əşyalarından ibarət rəsmin təsviri | 14 |
| 2.4 | Müxtəlif fakturalı məişət əşyasından interyer güşəsində qurulmuş natürmort | 20 |
| **Bölmə 3. Gips cisimlərdən ibarət rəsmin təsviri.** | | |
| 3.1 | Gips vazın rəsminin təsviri | 12 |
| 3.2 | Dörd ləçəkli gül ornamenti rəsminin təsviri | 12 |
| 3.3 | Gips kolonundan ibarət rəsmin təsviri | 16 |
| 3.4 | Gips ornamentin rəsminin təsviri | 20 |
| **Bölmə 4. İnsan başının hissələrinin gips surətindən ibarət rəsmin təsviri** | | |
| 4.1 | Dodağın gips surətindən ibarət rəsmin təsviri | 6 |
| 4.2 | Gözün gips surətindən ibarət rəsmin təsviri | 8 |
| 4.3 | Burunun gips surətindən ibarət rəsmin təsviri | 8 |
| 4.4 | Qulağın gips surətindən ibarət rəsmin təsviri | 8 |
| **Cəmi: 180 saat** | | |

## MÖVZULAR VƏ ONLARIN İZAHI

### Bölmə 1. Həndəsi fiqurlardan ibarət rəsmin təsviri.

***Mövzu* 1.1. Giriş. Rəsm haqqında ümumi məlumat – 2 saat**

Rəsm haqqında ümumi məlumat. Məhşur rəssamların əl işlərindən ibarət illüstrasiyaların əyani olaraq göstərilməsi. Məhşur rəssamların işləmə texnikası, akademik rəssamlıq məktəbinin işləmə üsulları. İbtidai dövrdən müasir dövrümüzə qədər rəssamlıq məktəbinin keçdiyi inkişaf yolları və müxtəlif texnikalar haqqında. Müxtəlif tərzli ştrixləmə üsullarının izahı və təcrübi olaraq göstərilməsi. Eskiz olunma qaydalarının izahı. Qələmin düzgün tutulması və molbert arxasında durma qaydası. Akademik rəsm və tədris rəsmi arasındakı fərq. Rəsm kursunun məqsədi – qrafik vasitələr ilə ətraf mühiti real əks etdirmək, şəkil müstəvisində ifadəli bədii əsər yaratmaq, müstəvi üzərində həcmli formanın qurulması metodları, fərdi dərketmə əsasında təsviretmə bacarığı, ətraf gerçəkliyin və realist rəsmin elmi əsaslarının analizi. Rəsmin işlənməsi zamanı göz yaddaşının və müşahidəetmə qabiliyyətinin inkişafı. Rəsmin işlənmə mərhələləri:

- Naturadan rəsmin işlənməsi
- Forma və həcm
- Rəsmin kompozisiyası
- Kostruktiv qurma
- Proporsiya
- İşıq – kölgə və ton
- Prespektiv qaydaların tətbiqi
- Tuşlama
- Faktura (materiallıq)
- Müqayisəetmə

***Mövzu* 1.2. Sadə həndəsi fiqurlardan ibarət olan rəsmin təsviri- 10 saat**

Həndəsi cisim anlayışı. Prespektiv anlayışı. Üfüq xətti, fəza müstəvisi haqqında ümumi anlayış. Həndəsi cisimlərin kağız üzərində düzgün yerləşdirilməsi və qurulması. Rəsmin qurulması zamanı natürmortda olan əşyaların bir – birinə olan nisbətlərinindüzgün tapılaraq işlənməsi. Ştrix vasitəsi ilə predmetlərin materiallığının göstərilməsi. İşıq və kölgənin verilməsi. Arxa və qabaq planın dəqiqləşdirilməsi. Rəsmin tamamlanması.

***Mövzu* 1.3. Drapirovka rəsminin işlənməsi saat – 8 saat**

Drapirovka rəsminin işlənməsi. Parçanın rəsminin qurulması. Qurulmuş parçanın qatlarının və axarlığının işlənməsi. Ştrix vasitəsi ilə parçanın materiallıq xüsusiyyətlərinin göstərilməsi. İşıq və kölgənin verilməsi.

***Mövzu* 1.4. Həndəsi formadan və məişət əşyasından ibarət rəsmin təsviri -10 saat**

Həndəsi forma ilə məişət əşyasının bir – birinə nisbətdə olan mütənasibliyinin tapılması. Həndəsi fiqurun əşyaya görə düzgün yerləşdirilməsi və qurulması. Rəsmin ton və işıq mənbəyinin vəziyyətinin əhəmiyyəti. Predmetlərin ştrix istiqamətlərinin göstərilməsi. Ştrix vasitəsi ilə materiallıq xüsusiyyətinin göstərilməsi. Arxa və qabaq planın dəqiqləşdirilməsi. Rəsmin tamamlanması.

## Bölmə 2. Məişət əşyalarından ibarət rəsmlərin təsviri

***Mövzu* 2.1. Bir və iki məişət əşyalarından ibarət rəsmin təsviri - 12 saat**

Məişət əşyalarından ibarət natürmortun rəsmi. Rəsmin qurulması zamanı natürmortda olan əşyaların bir – birinə olan nisbətlərinin düzgün tapılaraq işlənməsi. Ştrix vasitəsi ilə predmetlərin materiallığının göstərilməsi. Həcm anlayışının rəsmdə göstərilməsi. İşıq və kölgənin verilməsi. Arxa və qabaq planın dəqiqləşdirilməsi. Rəsmin tamamlanması.

***Mövzu* 2.2. Mürəkkəb formalı məişət əşyalarından ibarət natürmort - 14 saat**

Formaca mürəkkəb quruluşa malik olan məişət əşyalarından istifadə etməklə natürmortun qurulması. Rəsmin qurulması zamanı natürmortda olan əşyaların bir – birinə olan nisbətlərinin düzgün tapılaraq işlənməsi. Ştrix vasitəsi ilə predmetlərin materiallığının göstərilməsi. Həcm anlayışının rəsmdə göstərilməsi. İşıq və kölgənin verilməsi. Arxa və qabaq planın dəqiqləşdirilməsi. Rəsmin tamamlanması.

***Mövzu* 2.3. Kontrast formalı məişət əşyalarından ibarət rəsmin təsviri - 14 saat**

Natürmortun əşyalarının kompozisiya baxımından yerləşdirilməsinin analizi. Dəyişik formalardan ibarət mürəkkəb natürmortun rəsminin kompozisiya variantlarının seçilməsi və kağız üzərində təsvirinin müəyyən edilməsi. Rəsmin qurulması zamanı natürmortda olan əşyaların bir – birinə olan nisbətlərinin düzgün tapılaraq işlənməsi. Ştrix vasitəsi ilə predmetlərin materiallığının göstərilməsi. Həcm anlayışının rəsmdə göstərilməsi. İşıq və kölgənin verilməsi. Arxa və qabaq planın dəqiqləşdirilməsi. Rəsmin tamamlanması.

***Mövzu* 2.4. Müxtəlif fakturalı məişət əşyasından interyer güşəsində qurulmuş natürmor - 20 saat**

Natürmortun əşyalarının kompozisiya baxımından yerləşdirilməsinin analizi. Dəyişik formalardan ibarət mürəkkəb natürmortun rəsminin kompozisiya variantlarının seçilməsi və kağız üzərində təsvirinin müəyyən edilməsi. Ştrix vasitəsi ilə hər bir əşyanın fakturasının verilməsi. İnteryer güşəsinin prespektiv qanunlar əsasında qurulması. İşıq və kölgənin verilməsi. Arxa və qabaq planın dəqiqləşdirilməsi. Rəsmin tamamlanması.

**Bölmə 3. Gips cisimlərdən ibarət rəsmin təsviri**

***Mövzu* 3.1. Gips vazın rəsminin təsviri - 12 saat**

Gips vazın rəsminin kağıza yerləşdirilməsi. Natürmortda istifadə olunan drapirovkanın vazın üzərində axarlığının, formasının və qatlarının göstərilməsi. Vazın rəsminin simmetrik qurulması. Gips materialın ştrix vasitəsi ilə verilməsi. İşıq – kölgənin göstərilməsi.

***Mövzu* 3.2. Dörd ləçəkli gül ornamenti rəsminin təsviri – 12 saat**

Ornamentin plastik xüsusiyyətlərinin və həcmin təsvirinin öyrənilməsi. Ornamentin simmetriyasına, prespektiv qurulmasına tam riayət olunması. Rəsmin həllinin konstruktivliyi. Ştrix vasitəsilə işıq – kölgənin verilməsi. Materiallıq xüsusiyyətinə önəm verilməsi. Rəsmin tamamlanması.

***Mövzu* 3.3. Gips kolonundan ibarət rəsmin təsviri - 16 saat**

Klassik gips cismin naturadan rəsmi. Gips cismin konstruktiv həlli. Həcmin ştrix vasitəsilə göstərilməsi. İşıq – kölgənin verilməsi ilə cismin fakturasının göstərilməsi. Rəsmin tamamlanması.

***Mövzu* 3.4. Gips ornamentin rəsminin təsvir - 20 saat**

Gips ornamentin kağız üzərində düzgün yerləşdirilməsi çox vacib şərtdir. İşıq – kölgəsini verməklə tonun alınması və ornamentin qabarıqlığının, fakturasının və həcminin tam bildirilməsi. Rəsmin tamamlanması.

**Bölmə 4. İnsan başının hissələrinin gips surətindən ibarət rəsmin təsviri**

***Mövzu* 4.1. Dodağın gips surətindən ibarət rəsmin təsviri - 6 saat**

İnsan başı hissələrinin təsvirinin öyrənilməsi. Müstəvi üzərində qoyulmuş gips elementin öyrənilməsinin vacibliyi. Elementin kağız üzərində düzgün yerləşdirilməsi , sonra onun düzgün qurulmasının öyrədilməsi. Dodağın konstruktiv qurulması qanunlarının rəsmdə tətbiqi.

***Mövzu* 4.2. Gözün gips surətindən ibarət rəsmin təsviri - 8 saat**

Elementi çəkərkən rəsmdə ön və arxa planın qeyd edilməsi.Gözün konstruktiv qurulması qanunlarının rəsmdə tətbiqi. Proporsiyaların düzgün tapılması. Elementin gips olduğunun, yəni fakturasının və materiallığının göstərilməsi.

***Mövzu* 4.3. Burunun gips surətindən ibarət rəsmin təsviri - 8 saat**

Kağız üzərində gips elementin proporsiyalarına uyğun yerləşdirilməsi və qurmaq. Ştrixləmə üsulu ilə elementin qabarıqlığını və onun gips materialdan olduğunun göstərilməsi. Rəsmin tamamlanması.

***Mövzu* 4.4. Qulağın gips surətindən ibarət rəsmin təsviri - 8 saat**

Gips elementin kağız üzərində düzgün yerləşdirilməsi, elementin proporsiyalarının bir – birinə mütənasibliyinin tam verilməsi. Elementin konstruktiv qurulması. İşıq və kölgənin köməyi ilə formaların qabarıqlığının və həcminin tam verilməsi. Rəsmin tamamlanması.

.

## ƏDƏBİYYAT

1. A.O. Barş. «Наброски и зарисовки» - Moskva 1968;
2. K.K. Aksyonov. «Рисунок» - Moskva 1983;
3. H.H. Rostovsev. «Академический рисунок» - Moskva 1973.